

# QƏBƏLƏ

№ 15-16 (7707-7708)
Bazar ertəsi, 29 iyul 2024-cü il.
1933-cü ildən nəşr olunur

ictimai-siyasi qəzet

qebele-ih.gov.az
gabalanews@mail.ru
facebook: Qəbələ qəzeti

# İlham Əliyevin atdığı addımlar həm bu günə, həm də gələcəyə hesablanır



Gələcəkdə başımıza nələrin gələcəyini, hansı sınaqlara məruz qalacağımızı, nələrlə rastlaşmaq ehtimalının olduğunu bilmək hər birimiz üçün maraqlıdır.

Ayrı-ayrı şəxslərin gələcək taleləri ilə bağlı nələrisə öyrənmək niyyəti ilə falçılara, ekstrasenslərə müraciət etmələri də kimsəyə sirr deyil!

Lakin onların söylədikləri "müştəri"ni razı salmağa hesablanır və dediklərinin məsuliyyətini daşımırlar.

Dövlətin, xalqın taleyi ilə bağlı məsələlər, inkişafın düzgün istiqamətlərini müəyyənləşdirmək və gələcəkdə bunları nəzərə alaraq hadisələri qabaqlamaq, yaxud baş verə biləcəklərə irəlicədən hazırlaşmaq isə bambaşqadır.

Bu, dərin bilgi, zəngin təcrübə, uzaqgörənlik, xüsusi istedad, həm də fəhm tələb edən bacarıqdır.

Bəli, dövlət rəhbərlərini bir-birindən fərqləndirən ən mühüm xüsusiyyətlərdən biri onların uzaqgörənliyidir.

Bu mənada Ulu Öndər Heydər Əliyevə bütün siyasətçilər həsəd aparırdılar.

Ulu Öndərimiz nəinki bir neçə il öncəni, hətta onillikləri belə qabaqcadan görür və olacaqlara hazırlaşırdı.

İyirmi ildən çoxdur ki, cənab İlham Əliyev Azərbaycana rəhbərlik edir.

Bütün olanları yazsaq, ötən iyirmi ildə baş verən dəyişiklikləri nəinki bir məqaləyə, hətta bir kitaba belə sığışdırmaq mümkün deyil!

* Bu illərdə Azərbaycan çox çətin sınaqlardan üzüağ çıxdı.

* Bu illərdə Azərbaycan dayanmadan inkişaf etdi, daim yüksəldi!

* Bu illərdə Azərbaycan tarixinin ən qüdrətli dövlətinə çevrildi!

* Bu illərdə Azərbaycan dünyada böyük hörmət qazandı, siyasi nüfuzu, sanbalı, sözünün təsiri artdı, dostlarının, əməkdaşlıq etdiyi dövlətlərin sayı çoxaldı!

* Bu illərdə Azərbaycan bir sıra nüfuzlu beynəlxalq qurum və təşkilatlara rəhbərlik etdi, qəti, prinsipial, humanist mövqe nümayiş etdirdi!

* Bu illərdə Azərbaycan əsas milli ideyanın reallaşmasına nail olaraq torpaqlarını işğaldan azad etdi!

Bütövlükdə Azərbaycan daim ucalıb, güclənib, xalqın sosial rifahı əsaslı şəkildə yaxşılaşıb.

* Azərbaycan dönmədən Heydər Əliyevin siyasi kursu ilə irəliləyib.

* Azərbaycan daim müstəqil, milli maraqların təmininə əsaslanan siyasət yürüdüb.

* Azərbaycan iqtisadiyyatını şaxələndirib, qeyri-neft sektorunun inkişafına nail olub.

* Azərbaycan daim hadisələri qabaqlayıb, siyasi və təbii kataklizmlərə hazır olub, müəyyən etdiyi bütün hədəflərə çatıb.

Bütün bunlar Prezident İlham Əliyevin uzaqgörənliyi, nəyi nə vaxt və necə etmək məharəti sayəsində baş verib.

Tarix üçün iyirmi il böyük zaman sayılmır!

Son iyirmi ildə Azərbaycanda görülən işlərin miqyası isə zamana sığmır!

Onların bir qisminə qısaca nəzər salaq.

Cənab İlham Əliyev hələ Azərbaycanın dövlət başçısı seçilməzdən əvvəl Milli Olimpiya Komitəsinə rəhbərlik edirdi.

Həmin dövrdə idmanımız tənəzzül dövrünü yaşayırdı: idman qurğuları qayğısızlıqdan və ya köhnəldiyindən sıradan çıxmış, stadionlar ən yaxşı halda "tolkuçka"lara çevrilmiş, təcrübəli məşqçilər və tanınmış idmançılar isə xarici ölkələrə üz tutaraq özgə bayraqları altında çalışırdılar.

Bu sahədə ciddi dəyişikliklərə nail olmaq, ölkədə idmanı yüksəltməkdən ötrü İlham Əliyev gərgin fəaliyyətə başladı.

Özünün də söylədiklərindən aydın olurdu ki, cənab İlham Əliyev idmanı kütləviləşdirməklə təkcə gənclərin fiziki cəhətdən normal inkişafını, asudə vaxtlarını səmərəli keçirmələrinin təşkilini, habelə pis vərdişlərə qurşanmalarının qarşısının alınmasının səmərəli vasitəsi kimi baxmır.

Digər hədəflər də vardır...

Dünya birliyində özünə layiqli yer tutmağa çalışan Azərbaycan, eyni zamanda idmanın inkişaf etdiyi ölkə statusuna da iddialı idi.

Bu iddia 2015-ci ildə ölkəmizdə keçirilən I Avropa Oyunları zamanı öz təsdiqini tapdı.

İlk dəfə keçirilən Avropa Oyunlarında Azərbaycan elə nümunə ortaya qoydu ki, elə standartlar müəyyənləşdirdi ki, indiyədək Avropa Oyunlarını keçirən dövlətlər hələ də bizdən öyrənməklə bizə bənzəməyə çalışırlar.

İdman həm də gənclərdə iradə, cəsarət, mübarizlik, vətənpərvərlik kimi keyfiyyətlərin tərbiyəsində mühüm vasitə sayılır.

İlham Əliyevin idman meydanlarında tərbiyə etdiyi gənclər sonralar orduda xidmət edərkən beynəlxalq idman arenalarında rəqiblərinə, o cümlədən erməni rəqiblərinə necə qalib gələrək Azərbaycan himnini səsləndirib bayrağımızı ucaltmışdılarsa, həmin şücaətlərini döyüş meydanlarında da nümayiş etdirdilər, qələbə bayrağını yüksəyə qaldırdılar.

İdman yarışlarında uğurla sınaqdan çıxan Azərbaycan gənci 44 günlük Zəfər müharibəsi dövründə kütləvi qəhrəmanlıqlar göstərdi!

Şuşa kimi qala şəhərini demək olar ki, yalın əllə aldı, 300-dən çox yaşayış məntəqəsini işğaldan azad edərək üçrəngli bayrağımızı dalğalandırdı.

Öz gücünü, qürurunu, mərdliyini və vətənpərvərliyini döyüş meydanında da təsdiq etdi!

Lazım gələndə Vətən uğrunda canından keçərək şəhidliyin ali məqamına yüksəldi!

Xalqın arzu və tələbi ilə ikinci dəfə ölkə rəhbərliyinə qayıdan Ulu Öndər Heydər Əliyev Azərbaycanı bir dövlət kimi məhvolmadan, xaos və anarxiyadan xilas etdi:

İki dövlət çevrilişi cəhdinin qarşısını məharətlə aldı, möhkəm və dönməz sabitlik yaratdı!

"Əsrin müqaviləsi" neft kontraktını imzalatdıraraq gələcək sürətli inkişafın əsasını qoydu!

Özlərini "demokrat" adlandıran "bəylər"in başı "şəxsi problemləri"-ni həll etməyə elə qarışmışdı ki, zəruri islahatları aparmağa belə "vaxtları" qalmamışdı.

Əslində, onlar ölkə miqyasında geniş islahatlar keçirməyə qadir də deyildilər.

Ulu Öndər Heydər Əliyev iki dövlət proqramı qəbul edərək bazar iqtisadiyyatı prinsiplərinə keçidi təmin etdi!

(Ardı 2-ci səhifədə).